

Mədət Əyyuboğlu

## And yerim

Ömrümə sığmayır arzum, diləyim,
Vətən torpağına, daşına qurban.
Sınağa çəkildin hər addımbaşı,
Üzüağ çıxdığın yaşına qurban.

İblislər, şeytanlar zəmanəsidir,
Başının altına qoyarlar balınc.
Qoruyaq Vətənin hər qarışını,
Qınına girməsin sıyrılan qılınc.

Şəhid arzusuna bələnib yatan,
Ruhların səsinə oyanan torpaq.
Tər qərənfil ətri duyulur səndən,
İgidlər qanına boyanan torpaq.

Zirvəsi görünmür sən adlı dağın,
Sənə sevgim daşı gülə döndərib.
Həyatda, ey Vətən, bil ki, varlığın,
Dərdimi, qəmimi külə döndərib.

Tanrıya duam var millətim üçün,
Allaha əmanət, Allahdan kərim.
Vətəni, torpağı, Azərbaycanı,
Məndən çox sevənlər mənim and
yerim.

## Tarixlərin komandanı

Allah bağışladı, şükür edirəm,
Sənin dözümünə, səbrinə bizi
İşıq salmaq üçün, nurlu yoluna
Məşəl etməliyik ürəyimizi.

Çıx Vətən seyrinə, şəhid qanına,
Boyanan lalələr əl edr sənə.
Sənə arxayındır ölməyən ruhlar,
Bilirlər qoymazsan ocaqlar sönə.

Biganə qalmışdıq biz təbiətin,
Doğan Günəşinə, yağan qarına.
Dirildi qəlblərdəölən duyğular,
Qovuşdu ürəklər arzularına.

Tarix yazan İlham, səninlə xalqın,
Əli həm Günəşə, həm Aya çatır.
Səni qiblə bildim, yaxşı ki, gücüm,
Allaha etdiym duaya çatır.

Ürəkdən deyirəm:- bu millət ki var,
Onun nəfəsisən, qürur anısan.
Sən təkcə dünənin, bu günün deyil,
Bütün tarixlərin komandanısan!

## Bayrağım

Əsrlərin arxasından
Dalğalanır bayrağım
O mənim öyrəndiyim
Mübarizlik dərsidir.
Tutalğacı Babəkimin
Kəsilən qolları
Parçası da Nəsiminin
Soyulan dərisidir.

## Zabitlər

Həyəcan siqnalı eşidən kimi,
Vətənə sevgidən qanad taxarlar.
Olsa da torpağa bağlı bu ömür,
Odlu şimşək olub göydə çaxarlar.

Gecəsi, gündüzü birdir bu ömrün,
Xoşbəxtlik, səadət keşikçiləri.
Dünyanın azadlıq nəğməkarları,
Onlara tapşırıb anamız Yeri.

Ulduzlu şinellər əyinlərində,-
Deyirəm nə xoşbəxt taleləri var.
Mənə elə gəlir çiyinlərində,
Bütün kainatı gəzdirir onlar.

## Biz qayıtdıq

Otuz ildir bizi haraylayır o,
Bizdən nə bir səda, nə bir soraq var.
Hələ də diksinib analar kimi,
Kəndimiz gözünü yuxulu açar.

Ucala obadan zurnanın səsi,
Neçə payız toyu yarımçıq qalıb.
Elə bil anadır, uyutmaq çün,
Dağlar kəndimizi qoynuna alıb.

Qayıtdıq, sevinir hər cığır, hər iz,
Vüsal arzusundan, de, kim doyubdur?
Kəndimiz o qədər qəribsəyib ki,
Həsrətdən yollar qucaqlayıbdır.